Konfransda təhsil naziri Misir Mərdanov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, Təhsil Nazirliyinin nümayəndələri, Təhsil Problemləri İnstitutunun əməkdaşları, Gəncə Şəhər Təhsil İdarəsinin, Naftalan şəhər, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Samux, Göygöl, Goranboy rayon təhsil şöbələrinin müdirləri, metodistlər, məktəb direktorları iştirak ediblər.

Təhsil naziri Misir Mərdanov və konfrans iştirakçıları öncə məktəbin foyesində təşkil edilmiş şagirdlərin əl işlərindən ibarət sərgiyə baxıblar. Sonra nazir riyaziyyat müəllimləri Yeganə Səfərovanın III sinifdə, Nabat Qasımovanın IX sinifdə apardıqları açıq dərslərdə iştirak edib.

Konfransı giriş sözü ilə açan Misir Mərdanov son illər respublikamızda aparılan təhsil islahatları haqqında məlumat verib. Təhsil naziri bildirib ki, ölkənin davamlı inkişafı üçün daim təhsilin səviyyəsinin yüksəldilməsinə diqqət yetirilməsi xüsusilə mühüm əhəmiyyət kəsb edir. Son illər Gəncədə müşahidə olunan dinamik inkişafdan söz açan nazir ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına böyük diqqət yetirdiyini vurğulayıb, bu məqsədlə qəbul olunmuş proqram çərçivəsində görülən misilsiz işlər haqqında danışıb. Təhsil sahəsinin inkişaf perspektivlərinə həsr olunmuş belə tədbirlərin keçirilməsinin vacibliyini söyləyən Misir Mərdanov konfransın əhatə etdiyi 11 rayonda təhsilin mövcud durumu haqqında aydın təsəvvür yaradan məlumatları iştirakçıların nəzərinə çatdırıb.